Yeni 100 dollarlıq əskinaz

Saxtakarlıq səviyyəsini aşağı salmaq üçün ABŞ hökuməti öz valyutasının təhlükəsizliyini qorumağa davam edir.

Sonrakı səhifələrdə biz sizə yeni 100 dollarlıq əskinaz və digər dəyişdirilmiş 50, 20, 10 və 5 dollarlıq əskinaz ları təqdim edəcəyik. Dəyişdirilmiş 100 dollarlıq əskinaz iki təkmilləşmiş təhlükəsizlik xüsusiyyəti - **Üçqat təhlükəsizlik zolağı** və **Mürəkkəbqabında zəng işarəsi** və digər qabaqcıl yeniliklər təqdim edir.

Əlinizdə olan köhnə dizaynlı əskinazları yenilərinə dəyişməyə ehtiyac yoxdur. Nə zaman buraxıldığına baxmayaraq, ABŞ bütün valyutaları hüquqi ödəniş siste-mi kimi qalır.

Hətta yüksək texnologiyalı təhlükəsizlik xüsusiyyətləri ilə, siz- məlumatlı istifadəçilər, saxtakarlıqdan müdafiənin ən gözəl üsulu olaraq qalırsınız. Yeni 100 dollarlıq əskinazı yoxlamaq və onun həqiqiliyini təyin etmək bir neçə saniyə aparır. Göstərilmiş iki təhlükəsizlik xüsusiyyətindən – Üçqat Təhlükəsizlik Zolağı və Mürəkkəbqabında zəng - istifadə etməyi və onları necə təyin etməyi öyrənin.

Daha ətraflı məlumat üçün www.newmoney.gov. internet səhifəsinə daxil olun.

Yeni 100 dollarlıq əskinaz

Xüsusiyyətləri barədə bilin.

Həqiqiliyi barədə bilin.

Özünüzü müdafiə edin- yeni 100 dollarlıq əskinazı yoxlamaq və onun həqiqiliyini təyin etmək bir neçə saniyə aparır.



Üçqat təhlükəszlik zolağı

Əskinazı diqqətinizi mavi zolağın üzərində cəmləşdirərək arxaya və irəli əyin. Siz zənglərin *100* rəqəminə dəyişdiyini görəcəksiniz. Əskinazı arxaya və irəli əydikdə siz *100* rəqəminin bir tərəfdən digərinə keçdiyini görəcəksiniz. Əgər əskinazı yanlara doğru hərəkət etdirsəniz, o aşağı və yuxarıya doğru hərəkət edəcək. Zolaq kağızda çap olunmuş deyil, tikilmiş vəziyyətdədir..

Mürəkkəbqabında zəng işarəsi

Rəngini dəyişən zənginin rəngini misdən yaşıla dəyişdiyini görmək üçün əskinazı əyin. Zəngin əmələ gətirdiyi effekt onun itib, sonra yenidən görünməsi olacaq.

1. Portretin şəkilində su işarəsi
Əskinazı işığa tutun və portretdən sağdakı bəyaz hissədə Benjamen Franklinin güclə görünən şəklini tapın.
Şəkil əskinazın hər iki tərəfindən görünür.

2. Qoruyucu sap
Portretdən solda şaquli vəziyyətdə yerləşən tikilmiş sapı görmək üçün əskinazı işığa tutun. Sap dəyişən formada yerləşən *USA* hərfləri və *100* rəqəmindən ibarətdir və əskinazın hər iki tərəfindən görünür. Sap ultrabənövşəyi şüalar altında çəhrayı rəngə çalır

.

3. Rəngini dəyişən 100 rəqəmi
Əskinazın üz hissəsinin sağ aşağı küncündəki rəngini misdən yaşıla dəyişən *100* rəqəmini görmək üçün onu əyin.

4. Qabarıqlıq izi
Barmağınızı əskinazın sol hissəsindəki Benjamen Franklinin çiyinləri üzərindən yuxarı aşağı hərəkət etdirin.
Şəkilin yaradılması zamanı istifadə olunan yüksək metalloqrafiya üsulları nəticəsində toxunuşda sərtlik hiss olunur. Ənənəvi qabarıqlıq izləri 100 dollarlıq əskinazın hər yerində hiss oluna bilər və bu həqiqi ABŞ valyutasına
xüsusi xarakter verir.

5. Qızıl 100-lük
Əskinazı arxasındakı geniş qızılı *100* rəqəmini tapın. Görmə qabiliyyəti zəif olanlara valyutanın növünü ayırd etməyə imkan verir.

6. Mikroçap
Benjamen Franklinin pencəyinin yaxasında əmələ gələn xırda çap olunmuş THE UNITED STATES OF AMERICA sözlərini, portret şəkilində su işarəsi əmələ gələn bəyaz
hissədə USA 100 işarəsini, qızılı şəkil boyunca ONE HUNDRED USA və əskinazın künclərində kiçik 100 rəqəmlərini tapmaq üçün diqqətlə baxın.

FW İşarəsi (burada göstərilməyib)
Fort-Uortda çap olunan yeni 100 dollarlıq əskinazın üz tərəfinin yuxarı sol küncündə, 100 rəqəminin sağında kiçik
FW işarəsi olacaq. Əgər əskinazın üzərində FW işarəsi yoxdursa, deməli əskinaz Vaşinqtonda çap olunub.

50 dollarlıq əskinazın dizaynı 2004-cü ildə dəyişdirilmişdir və üç qoruyucu cəhətə malikdir: qoruyucu sap, portret şəkilində su işarəsi və rəngini dəyişən *50* rəqəmi.

1. Qoruyucu sap rəqəmi **2. Portret şəkilində su işarəsi** **3. Rəngini dəyişən 50**

20 dollarlıq əskinazın dizaynı 2003-cü ildə dəyişdirilmişdir və üç qoruyucu cəhətə malikdir: qoruyucu sap, portret şəkilində su işarəsi və rəngini dəyişən *20* rəqəmi.

1. Qoruyucu sap 2. Portret şəkilində su işarəsi 3. Rəngini dəyişən 20 rəqəmi

10 dollarlıq əskinazın dizaynı 2006-cı ildə dəyişdirilmişdir və üç qoruyucu cəhətə malikdir: qoruyucu sap, portret şəkilində su işarəsi və rəngini dəyişən *10* rəqəmi.

1. Qoruyucu sap 2. Portret şəkilində su işarəsi 3. Rəngini dəyişən 10 rəqəmi

5 dollarlıq əskinazın dizaynı 2006-cı ildə dəyişdirilmişdir və üç qoruyucu cəhətə malikdir: üç kiçik sulu 5 rəqəmli sütün, qoruyucu sap və *5* rəqəmi şəkilində su işarəsi.

1. Su işarəsi: üç kiçik sulu 5 rəqəmli sütün
2. Qoruyucu sap
3. Su işarəsi: böyük 5 rəqəmi

Suallar və cavablar

S: Saxta əskinazla üzləşdiyim zaman nə edim?

C: Əldə etdiyiniz pulun saxta olduğunu düşünürsünüzsə və ya ondan şübhələnirsinizsə, onu polis bölməsinə təqdim edin. Əgər əskinaz həqiqidirsə, o dərhal geri qaytarılacaq. Əgər əskinaz saxtadırsa onun dəyəri sizə ödənilməyəcək. Bu saxta əskinazların bilərəkdən ötürülməsi qanununa əsaslanır.

S: ABŞ valyutasındakı dəyişikliklər barədə daha ətraflı məlumatı haradan ala bilərəm?

C: Müxtəlif dillərdə məlumat olan www.newmoney.gov internet səhifəsinə daxil olun.

ND PRIVATE
HUNDREDUSAONE HUNDREDUSAONE
political bands which have connected
JB 00
TREASURY
1789

Əlinizdə olan köhnə dizaynlı əskinazları yenilərinə dəyişməyə ehtiyac yoxdur. Nə zaman buraxıldığından asılı olmayaraq, ABŞ bütün valyutaları hüquqi ödəniş sistemi kimi qalır.

www.newmoney.gov

Yalnız təhsil üçün istifadə olunur. Satıla bilməz.